ali.valioglu@hotmail.com

NÜVƏDI

Yerli Sözlər

Toplayan

Ali Valioğlu

834 Başliq

Ilk Basım-TURUZ.COM

8\4\2012

Acı səvzi	il boyu suda yaşıl qalan yeyilən acı göyərti..
Acıtərə	vəzəri.
Ada kötüyü	kökəlib həddini aşan adama deyilir.
Ağnamaq	eşşək özünü torpağa,peyinlikdə yerə sürtməsi..
Ağrıx	gözün iltibahı.
Ağtüklü	qoyun cinsinə deyilir..
Alaqarın	çiling-ağac oyununda azlıqda qalan dəstəyə verilən əlavə oyun. .
Alaqarın	yeməkdən tam doymamaq..
Alanbar-dolanbar	əyri-üyrü getmək,tərs oynamaq..
Alasan-küləsən	boş şey, mənasz.
Alaşqa	ariq at, həm də rusiyanın iri cinsli zastavalarda əsgərlərin xidmətinə verilən atlar..
Alışım	soyulan dərinin üstündə qalan ət layları..
Alqax-calqax	qohum-qardaşın dəstə ilə tökülüb gəlməsi..
Allahlamaq	tez bir zamanda yeməyi yeyib-qurtarmaq..
Andıra qalasan	yox olasan.
Anqırtma	beşdaş oyununda uduzanın barmaqları arasına qoyub sıxmaqla verilən cəza növü..
Aralıqatı	boş-bekar gəzən,hamının buyruğuna gedən adama deyirlər..
Arqaş	qatıcı,mərdiməzar,satqınlıq edən..
Astal	qışda meşələrdə palıd ağacında göyərən yaşıl şibyə.
Aşqar aşqarlanmaq	çox yeyib qarnı qalxan, və ya çox yediyindən heç yerə tərpənməyən, sözə baxmayan adam..
Atdı-babış (gəldi.)	at minib boş-boşuna çapdıran adam..
Atdı-babış	küçələrdə ayaqyalın elə-belə qaçan uşaq..
Atdıqarışqa	iri, uzunayaq, qıvraq yeriyən qarışqa..

Avecə Təndirdə çörək bişirənin şərikli köməkçilərnə deyilir..

Avza pis görünüşlü, pis geyimli adama deyilir..

Azaylanmaq tənbəlin işə həvəssiz getməsi, ya da getmək istəməməsi..

Baba Hacı Nüvədidə pir. Babəkin,anasının, arvadının, Bəruməndin və Kələntəniyyənin hər üçünün qəbrləri qoşadır. Nüvədililər oraya daima ziyarata gedərdilər. 1988-ci ildən ermənilərin işğalına keçib..

Bacıx bəzək-düzəkli geyimi sevən qız uşağına deyilir.

Badkeş beldən(kürəkdən) qan almaq üçün işlədilən heyvan buynuzundan düzəldilmiş alət..

Basdıq-alana içi qoz və s.doldurulmuş əncir..

Başını bir yerə yığmaq oğlanı evləndirmək.

Bayındır Güman ki,Dədə Qorqiddakı Xanın adıdır..

Bayınmaq Hı səndən bayınıb heyzə oldum.(Lağ ilə: yəni, səndən yarıdım, xeyir gördüm)..

Bazburut boy-buxunlu, iri gövdəli, yekəpər adam..

Becid tez-tez.

Behdin boş-bekar.

Behtəşən miras qalmış.

Bekinkarı əlindən heç nə gəlməyən, bacarıqsız, küt.

Belinə çöpdən dirək işi yarıtmayana lağ ilə deyilən söz.

Beyəncəri eybəcər, kifir.

Bezəgərir narın yarpaqlı, xoş ətrli yeməli səvzi..

Bezovşa bağa yarpağı .

Bəddə Bu bağlamanı al atın yükünə bağıa (bəddə)..

Bəndam otu dərz bağlamaq üçün otdan hörülmüş bağ.

Bəndivan bənd etmək, aş, bağla.

Bərə dağ keçid, ovçu ovu vurmaq üçün bərədə gizlənir. Və ya sürünü sağmaq üçün arvadlar bərədən (dar keçiddən keçən heyvanıları asanlıqla tutub sağırlar).

Bərqəş qəsdən,bilərəkdən,pislik.

Bəsarəti bağlanıb qisməti, bəxti gətirməmək.

BƏŞƏ birçək,qadınların saçı.

Bəşməkan filan bəşməkan danışdı, yəni boş söz, heç nə .

Bəyəm məgər.

Bəysimat mayalı xəmirin həddən artıq qıcqırması,turşaması.

Bəzzat qoçaq,(əzazil,zalım mənasında da işlədirik).

Bic-bicengə dələduz, fırıldaqçı,kələkbaz (uşaqlara deyilir).

Bicələk fırıldaq işlədən balaca uşağa deyilir.

Bidadlıq etmək dəlilənmək, havalanmaq.

Bıddamaq nəyi isə qurdalamaq, çörlə, barmaqla torpağı, divar deşiyi qurdalamaq.

Binalı həmişə, hər vaxt.

Binalılıq həmişəlik, ömürlük, əbədi.

Bir burun qaynadı endir xörəyin bir dəfə qaynatmağa deyilir.

Birəmiş körpə oğlaq-quzunu güntunda(sutkada) bir dəfə əmizdirmək.

Birhavdan bir azdan sonra.

birinizə Yəni qışqırıb-bağırmaq.

Birmərrə bir dəfəlik.

Bisdən-təvərədən çıxmaq Hövsələdən çıxmaq.əsəbiləşmək.

Bisəfərım beləliklə, sonra, deməli.

Bolşevik qayqanağı pamidor-yumurta çığırtması .

Bomba çörəkçidə qalın kərpic formasında bişirilən çörək..

Bombaz parça növü.

Böyən-davarın yazağzı (yazın əvvəli) duru ifrazına deyilir.

Bu dəkkədə bu an, bu vaxt.

Bu yeng ilə bu gedişlə, bu hal ilə.

Buğa əl Kəbirin qəbri.

Buğukar Mehri rayonunda tanınmış pir.Ərəb xilafətində Babəkə qarşı vuruşan Türk sərkərdlərindən biri olan .

Bulacaq otu bağlama etmək üçün oxlov uzunluqda budaqdan hazırlanmış əl ağacı.

Bulama təzə doğan heyvanın mayasını südə qatıb istidir və qatı halına düşənəcən bulayırlar. .

Burma biri biçilmiş otu ağacla burur, ikincisi əşilmməkdə olan otları bir-birinə calayıb burulmuş yoğun ot dağılmasın deyə qolda üç qat eləyib düyün salır. .

Burux (heyvan) axtalanmış heyvan (xayası çıxarılmış).

Burunlu-qulaqlı (sıpa) qanmaz,kobud adama deyilir.

Burunu üzdən kəsmək münasibətləri bir dəfəlik kəsmək.

Buşqax evin küncü, bucağı.

Bühlüm döngə .

Bühmək 1) aldatmaq, başından eləmək. 2) hər hansı şeyi dəsmala, kağıza bükmək..

Cacıx. Biryan dağ səbzisi.

Cəhl eləmək inad göstərmək, höcətləşmək, mübahisə etmək.

Cəng kəsib mis qabın oksidləşməsi.

Cərgənədən oldu qapını yerindən eləmək. xarab etmək.

Cır	balaca, dadsız meyvə.
Cıvındarax	saçları yolmaq, ust-başını cırıb-yolmaq.
Cıvrıq	qozun qabığı.
Cızığagirmə	keçmiş uşaq oyunu.
Cüftə	zəif bədənli, cansız.
Çağala	əpiyin ilk qozası.
Çaqqanağı çıxıb	sür-sümüyü, skleti.
Çalğı	tövlə, kaha süpürmək üçün koldan hazırlanmış süpürgə.
Çalxar	dana dərisindən hazırlanmış nehrə.
Çalqa-malqa	qəfildən ölümcül xəstələnmək, əhvalın pozulması.
Çanxıl	çınqıl.
Çarpanaq	daşdan qopan çox balaca giliz.
Çatdanquş	çatdaquş, saqqız ağacının meyvəsi.
Çer	çəpgöz.
Çəçələri	barmaqları,əlləri.
Çəft	şalvarın arxa hissəsi.
Çəkil	tut ağacının budaqlardan arıtlanmış hissəsi .
Çələbiyan	oğru. çapıb-talayan. bir yerdə durmayan.
Çəlika	qıçları çox nazik, apıq adam.
Çəlimsiz	cılız, zəif.
Çəm	suyun üzündə mamır.
Çəmbər	it quyruğunun ucunun qövs şəklində olması.
Çəpərə	ölmüş malın skleti, qabırğaları.
Çərçi	xırdavatçı,xəsis, qıymaz.

Çilləkən vermək suyun üzünə yığılıb axarını ləngidən çör-çöp.

Çılmaq, Çıldırmaq səssizcə xəbər vermək,üstüörtülü işarə vermək.

Çimçavat iyrənən.

Çimçəşmək iyrənmək, ikrah olmaq.

Çımır ani huşlanmaq.

Çitəmə yan-yana düzülmüş, döşənmiş.

Çobankərə necə gəldi danışmaq, iş görmək, qaydasız iş.

Çoşqa donuz balası.

Çözarası heyvan bağırsağlarındakı piy.

Çust ayaqqabı.

Çüyə odun parçası.

Daatdamaq gedib yoxlamaq,axtarmaq,yerini öyrənmək.

Dabbax mal-heyvan xəstəliyi.

Dadadadı göydədi ağrıdan çığırıb-bağırmaq.

Dadi-bidad Allaha yalvarmaq mənasında.

Dağal tənbəl.

Dağal tənbəl.

Dam daşı evin üstünün torpağını bərkitmək üçün diyircək .

Dana tut,Bedana tut,Eşşək tut tutun növləri.

Danaqıran dağ gülü.

Danaqirandan 40 dərz bağlayır göpçu,küykü,yarıtmaz.

Danqızlanma yekə-yekə danışmaq, üstünə kəkələnmə.

Dar lülüfə dar uzun.

Daraba məhəccər.

Daraybadad uzaq, hər yerdən əlaqəsi kəsilmiş yer.

Dastavaz	əzbərləmək, çox çeynənmiş söz.
Daşırqamaq	mal-qaranın daşlıqda çox gəzməkdən dırnaqları yeyildiyindən tərpənə bilməməsi.
Dəbbələmək	tələb etmək, təkid etmək.
Dəc	bütov, toxunulmamış.
Dədəli-nənəli	xörək adı.
Dəfi dönüb	pisi çıxıb, küskün, heç nəyə məhəl qoymamaq.
Dəfin nağda vermədi	qəfildən öldü(heyvanla bağlı işlənir).
Dəhnə	bulaq, kəhriz.
Dəli möv	barsız üzüm(meynə).Bunun çiçəklərini yığıb qurudurlar,bar verən üzümlər təzə çiçəkləyəndə qurudulmuş tozu üzüm salxımlarını bir-bir tozlayırlar.Beləliklə salxımlar həm iri olur, həm də məhsuldar olur. .
Dəmşəlax	şırtı, əttökən,təlxək, mənasız danışan.
Dəndənə	Divar hörərkən daş düz otursun deyə altına qoyulan yastı, balaca daş parçası.
Dənəş-dənəş	iri, dən-dən.
Dəp	Yaylaqda ağacdan və iki yanı daşdan tikilmış, yaxut yanlarına çətən çəkilmiş (alaçığı əvəz edən) alçaq, balaca ev..
Dəstərxan	süfrə.
Dəvri qədimdən	uzaq keçmişdən.
Dibək	içi çıxarılmış çuxur iri daş.Duz,çəltik döyərdilər.
Dıdı-vıdı	yalandan kitab oxmaq,başdansovdu oxumaq.
Dıfı	yetim .
Dığacar olmaq	cana döymaq,zara gəlmək.
Dıhınc	deməli, indi, deməli oldu, ıhı.

Dıjmır şıltaq,idişkən,tutduğuğundan əlçəkməyən.

Dıqı (dıqış) az miqdarda heyvan, balaca oğlaq.

Dıqqı azarı deyingənlik.

Dıqqı zəhlə tökən.

Dıqqılı balaca, lap xırda.

Dilab evdə balaca taxça.

Dilgir olmaq deməkdən yorulmaq.

Dındalamaq xörəyi iştahsız yemər, qaşığın ucu ilə qurdalamaq, xörəyi elə-belə çevirmək.

Dındının yanını kəsib yanında, böyründə oturmaq.

Dınqa Təpənin yüksəkliyi,hündür daşın təpəsi.

Dınqırı dınqırdan seçir tükü-tükdən seçir,çox ayıq,diqqətçil.

Dıpıdaşı sakitcə,lal-dinməz oturmaq.

Dirçəlib arıqlıqdan,xəstəlikdən durmaq,özünə gəlmək.

Dırdeh yekə, boylu-buxunlu, lakin əlindən bir iş gəlməyən.

Dır-dığalar (dığa ermənicə oğlan) yaramaz,şuluq uşaqlar.

Dirədöymə qədim uşaq oyunu.

Dirəmə kisəni ağzına qədər doldurmaq.

Dirəşmək inadkarlıq göstərmək.

Diringi tutmaq çalıb-oynamaq.

Divdik diribaş, çevik.

Dıvışqulu tez üşüyən,soyuqdan büzüşən.

Dizlik alt tuman.

Doqquzdan dağlarda bitən qırmızı, giləli meyvə.

Dombalan nubarı xoş olmayan xəbər, narahat söz.

Dönə-dönə dəfələrlə.

Dutdamaq iti küşkürtmək, kiminsə üstünə qaldırmaq.

Duzlaq ildə 1-2 dəfə heyvan sürüsünə duz verilən yer.

Dübbü inadcıl,inadkar, dediyindən əlçəkməyən.

Dübür 3-4 yaşlı iri erkəc keçi.

Düdük 1.İçində təzə tutulmuş saqqızı saxlamaq üçün barmaq boyda qarğı.2. Düdük acıqlı söyüş kimi də işlənir .

Dühcə yumaq.

Dümləmək acgözlüklə qabdakı suyu başına çəkib tam içmək.

Dümsük 1.dürtmə.2.Oğlaqı əmərkən anasını dümsükləyir.

Dünyagir tamahkir,dünya malından doymayan.

Düşərgah yurd yeri,əhalinin yaylaq yeri, düşdüyü oba.

Düyə ilyarımlıq doğmamış inək.

Düyünçıx boxça, bağlama.

Ehdin eləmir saymır,əhəmiyyət vermir.

Ehdininə almır hesaba almır,saya salmır..

Ehsan xanın oğludur Heç nəyi saymayan, qoddaz, yekəxana adama lağ ilə deyilir. Eysan xan Naxçıvan xanlığının hörmətli xanı olub..

Erməni kəndi çıxıb balaca cızılan yerə, yaraya lağ mənası ilə deyilən ifadə.

Eşşəkbeli qədim uşaq oyunu.

Eygiliyə çıxmaq asudəliyə, xoş günə çıxmaq..

Eymə dəridən, parçadan qatıq üçün tikilən torba .

Eynin açılsın qaş-qabağın, keyfin açılsın.

Eyninə almaq fikir verməmək, vecinə almamaq.

Eyzən tamam, həmişə.

Əbə daşı və ya dıppı daşı yerindən tərpənməyən, hərəkətsiz.

Əbə çiling-ağac oyununda ovuc irilikdə qazılmış yer, məkan, mərkəz.

Əfsanətə düşüb verdiyin xəta-bəladən qurtarıb.

Əfsimək düyünü,buğdanı məcməyində atıb-tutmaq.

Əhliyət olmaq nəzarət etmək, qayğı, xidmət göstərmək.

Əkmək 1. əkmək, bitirmək 2.oğurlamaq, azdırmaq.

Əlbəhəlim dərhal, ağızdan söz qurtarmamış.

Ələkçinin və ya qalayçının qıl verəni kiməsə arxa duran adama deyirik.

Ələngə kəsilmiş malın çanaq sümüyü.

Əlik cüyür, ceyran.

Əlləmə iri atılan daş parçası.

Əneyin məzəli, gülməli.

Ənəhət fərdi təsərrüfat, camaat.

Ənik İtin, canavarın bir yaşa yaxın balası.

Ənkə nəslin ata-babası.

Ərbə Tərəzinin gözlərini bərabərləşdimək üçün qoyulan daş, əşya .

Ərdəm, kirdar qeyrət, həvəs, şövq.

Ərdov Xəstə heyvana verilən iliq suda qatılmıç unlu həlim.

Ərsin xəmir kəsmək üçün əl irilikdə dəmir alət .

Əşədi həddən ziyada, qərarsız.

Əvdimək yerdən tut yığmaq, düyünü çəltik-qaradan təmizləmək.

Əvlad uzaq qohum.

Əylişmək, idişmər arası dəymək, kinni olmaq,ədavət aparmaq.

Əzvayiş dolanışıq, güzaran.

Faltağan yaranan, yaltaqlanan.

Fasıx bic,fırıldaq, hiyləgər,evlər yıxan,alcaq.

Fərş	otağa salınan kilim-gəbə, otağın döşəməsi.
fıstırıq atır	kefi gəlmək, şənlənmək, oynamaq.
Fıt, Fınt, Fıtca	eynilə, tam oxşar.
Frovun	kinli, qəzəbli, əzazil,ipə-sapa yatmayan.
Gahgir	hərdəmxəyal.
Gaz	gəz diş çəkmək üçün kəlbətin .
Gedələşmək	mübahisə etmək, höcətləşmək, davalaşmaq.
Gəlinbacı	qardaş arvadı.
Gəllədar	çoxlu heyvanı ilə camaatın heyvanlarından sürü düzəldib çobana və sürüyə nəzarət edən adam.
Gəmircək	atın-ulağın ağzında artıq ət, zob.
Gərdügüşt	lağ mənasında xoşagəlməz,bacarıqsız.
Gərgubud	kələkötür,kobut, əyri-üyrü.
Gərməşov	çubuqlarından səbət toxunur.
Gəşniş	yabanı ətrli dağ keşnişi və təbii bağ tərəvəzi.
Gəvən	iynə yarpaqlı,yağlı kol, yandırılıb döyüb telləndirib .
Gəy yazmaq	heyvanın qısır qalması.
Gəyişmək	məsləhətləşmək.
Gəzirəlik	kol-kosluq yer.
Gıldır-gıldır	iri-iri, yekə-yekə.
Gılıf	baca, deşik, küfül.
Girə vermək	satmaq, ələ vermək.
Girnəş	istidən qoyun-quzunun baş-başa veriv durması, kölgədə daldalanması.

Gırrdın	iri odun parçası.
Gırt yarı	tən yarı.
Giyəv	kürəkən.
Goveyin	1.Xışın itu ucu.2. məcazı mənada- gur səsli adam.
Gödən ağrısı	adama əziyyət verən, başınıaparan, zəhlətökən .
Götürgə	tikilinin, yarlığanın qabağına çəkilmiş alçaq divar.
Götürüm düşmək	yoxsullaşmaq,kasıblamaq.
Gözəmək	paltarda dağılmış, süsülmüş yeri yamamaq.
Gubu	evin ilk qaba suvağı.
Gupadanqulu	sözünün dalı-qabağını bilməyə, kobud danışıqlı.
Güdül	1.qarın.2. bədənin başla qıçlar arasındakı hissə.3.yoğun ağacın qısa gövdəsi.
Gülgavaz	gülüng olan adam, xoş gəlməyən adam.
Gürşad	gücglü, ildırımlı leysan yağışı.
Güzlək	Yağışdan sonra biçilmiş yerin təzə yaşıllaşması.
Hadağa	ölçüsündən xeyli çox, hədsiz.
Hafıldey	sobanın istisindən evin hədsiz dərəcədə qızması.
Hakışta	bir ayağı üstündə atılaraq yerimək.
Halla-qulla	qollarından, qıçlarından götürüb aparmaq.
Hampa	xeyli adamın sürüsünə nəzarət edən,nizamlayan adam.
Haraqurna	iri giləli, çox şirin üzüm növü.
Harsın	erməni gəlini, arvadı (söyüş mənasında).
Havırlaşmak	itlərin mehribanlaşması.
Havır-zavır eləmək	düşdüyü vəziyyətlə barışmamaq,çığır-bağır salmaq.

Hazara evin nərəsinə (milinə) altina vurulan dirək əvəzi dirək .

Herağac gəlmisən 1.Tez gəlmisən.2.yubanmısan, gecikmisən.

Herağaş erkən, tez.2. yubanmaq, gecikmisən.

Hernən-peri qanmır he nəyi qanmır, başa düşmür.

Heyri ipək qurdu üçün tut ağacı.

heyvana yem edirlər.Heyvan10-15 günə kökəlir..

Heyzə etmək yəni vermədik, yedirtmədik,razı salmamaq.

heyzə azırda olmaq.

Hə dəy, Nasta heç bir iş görmür,işləmir,dərslərini oxumur.

Həçi qaraçısı ləyaqətsiz, döyüşkən, söyüşkən,yanşaq qadın.

Hələm-hələm tək-tək, nadir.

Həmgələ gəlmək iki sürünü bir örüşdə yan-yana otarmaq.

Həmxana köhnə, yaşaması çətin olan ev.

Həncama qədim qapılara vurulan petla.

Həndə-məndə o yan-bu yan eləmə,yekə-yekə danışma.

Hərgah əgər.

Hərifana Malı kəsib adamlar arasında bərabər pay qoymaq.

Həsbə tökəsən sağalmaz xəstəlik.

Həsbə tökəsən sağalmaz qara yara.

Həsbəndində olmaq arzusunda olmaq,bir şeyin tamahında olub və ya olmaması.

Həybə iri xurcunun .

Hingilti inildəmək, zarımaq.

Hıntıl olmaq bayınmaq, yarımamaq, bir şeyə çatmamaq.

Hırıfı tutub qəzəbi, hirsi.

Hökküldəmək	hündürdən, qəzəbdən, əmir formasında ucadan danışmaq, bağırmaq.
Hölləşmək	malların buynuzlaşması, bir-birini buynuzları ilə itələşməsi.
Hövlünnən	hirsindən, hikkəsindən, qəzəbindən.
Hudax	əkin zamanı qabaq öküzləri işlədən cütçü.
huşturux	dodaqda çalınan fit, fıştırıq.
Huzunun biri	qamazın, kobudun, eşşəyin biri.
Hülü	sümüyündən ayrılmayan şaftalı.
Xalvar	adam boyda buğda kisəsi.
Xar etdin	peşman etdin, xəcalət etdin.
Xar	erkək keçi.
Xarım	sel-su alaçığa dolmasın deyə alaçığın üstündən açılan arx. Bu sözü Şumer-Türklər də işlədirdi..
Xelley	xeyli.
Xəfə	yarıqaranlıq havasız yer.
Xəşənək	paxıl, qarnı qurdlu.
Xəzaz	yabanı səbzi.
Xıcın	məhsulu yığılmış bağa meyvə axtarışına çıxmaq.
Xıjm ilə	bərkdən, qapıb-qovurub almaq.
Xıl	zil-zibil.
Xilal	nöqsan.
Xıncım-xıncım	çiling-çiling olmuş, ovulmuş.
Xirçək	haça dirək.
Xırnova	sel-suyun yuyub əmələ gətirdiyi yarlığan.

Xısın-xısın	gizli-gizli, yavaş-yavaş.
Xışma	ovuclamaq.
Xıtı	yaltaq.
Xıtı	yaranan, yaltaq.
Xızan	sürü.
Xorasan	boranı, balqabaq.
Xuduru	əbəs, boş, mənasız.
Xufat-xunah	xiffət, fikir-dərd çəkmək.
Xupunca	doyunca, bəs deyincə.
Xuruş	paxıl, paxıllıq.
Xusax	çox alçaq. darısqal ev.
Xusumat	kinli, paxıl.
Xuşu	suyu boş, tez sözə yatan.
Xutunun biri xutu	qoduğun, eşşəyin biri.
İcəşmək	sataşmaq, söz atmaq,gözümçıxdıya salmaq.
İgəşqan.Şitəngi	davakar, adamla yola getməyən .
İnni-cinni, İns -cins	heç bir canlı olmayan.
İsbatlı	samballı, əməlli-başlı.
İsnad vermək	tanıtmaq, yerini göstərmək.
İşkil	qapı cəftəsi.
Kal	yetişməmiş meyvə,gec-çətin başa düşən adam.
Kalafa	xarabalığı qalmış ev.
Kalamış(Xart kalamış)	kərtdənkələ.
Kalfır	qabaq dişləri tökülmüş.

Karkin	xeyirxah, əltutan.
Kasa	tısbağa.
Keşəlt	suya qoyub yumşaltmaq.
Kevə	ayı balası.
Keydər quşu	hinduşqa irilikdə meşə xoruzu.
Keyxa	erməniyə deyilən "dost", "aşna".Söyüş mənasında.
Kəci	baramanın isladılıb döyüb yumuşalmışı,həm də pambıqdan əyirilmiş sap.
Kəfşən	böyük sahəli bağ.
Kəkil	tel, saç.
Kələ (Buğa)	erkək, iri öküz.
Kələf	1. işlərin düyün, tərs düşməsi.2.Boyanmamış ip dəstəsi.
Kələkey	təzə doğmuş heyvanın mayası və süddən bişirilmiş qatıq bərklikdə məhsul .
Kələyini kəsdi	imkanını,fürsətini,işini,arzusunu,halını kəsdi.
Kəpir	kövrək, tez ovulan daş, dağ.
Kərə	1. yağ.2. tükü tam qırxımlış baş.3.qulağı kiçik olan heyvan.
Kərəməz	qatığa süd qatıb çörək doğrama yeməyi.(Nənətılta isti südə çörək doğrayıb xeyli soyuq suda saxlayandan sonra yeyilir)..
Kərənti	dəryaz, ot biçmək aləti.
Kərki	ağac yonmaqdan ötrü ağzı içəti olan dülgər aləti.
Kərmə	qurumuş heyvan təzəyi.
Kəsavət basıb	bədbinlik, kifirlik, bədlik basmaq.
Kəsik	sahibsiz uşaq.

Kəvla üzüm ağacının dibinə vurulan ağac paya (dirək).

Kəzzab qaniçən, başkəsən, zalım, yazığı gəlməyən.

Kilə süpürgə 1.çox işlənib kötüyü qalmış süpürgə. 2.Danlanan, hər işə göndərilən,qiymət verilməyən adam.

Kilə təndir üçün gil palçıqdan döyülüb uzadılmış dördkünc çiy kərpic.

Kilid qıfıl.

Kilkə pırtlaşıq, kirli, gödək yun.

Kilt düşmək toyuğun kürt yatması.

Kirkan bəşə qarmaqarışıq saç.

Kirkirə əl dəyirmanı.

Kirov olub qızlar saçlarını soyuq suda və ya isti sudan dərhal sonra şaxtaya çıxarsa, saç möhkəm dolaşıq düşür və daranıb açılması çətinləşir..

Kirs selabda, yarlığanda, dərələrdə buzlaşmış qar yığımı.

Kirza yarpaqlı tutdan iri bağlama.

Kisib tapmaq güya tapılmayan şeyi tapıb fərəhlnmək.

Köbə 1.şəhəngin alt kəmərəsi.2.tumanın ətəyinə tikilmiş lent.

Ködəv dərialtı şiş, irinli yara.

Kömbə ocaq külünə basırılıb bişmiş qalın çörək.

Körükburun (Pınzaburun) yastı, iri burun.

Kösəv kösöy, yanmış, yanmaqda olan odun.

Köşə çarıq tikmək üçün dəridən çəkilmiş nazik tel.

Köşkə kaş, yaxşı olardı ki,.

Kuka balaca çörək. Kuka Şumer Türklərində də işlənirdi.

Kuru at balası.

Küfül	qağlarda, qayalarda təbii deşik,kiçik mağara.
Kükovul	incə yarpaqlı,ətirli, dolmada işlədilən bitki növü.
Küllük	kül tökülən yer.
Künə	1.yumurtanın sivri olmayan hissəsi.2.Barama qurduna verilən yarpaqlı tut buqaqları və qalığının tığı .
Kür	fərasətsiz, tənbəl, bacarıqsız.
Kürə	qulağı orta ölçülü heyvan.2. Çörək bişirilən soba.
Kürül	bolluca, hədsiz-hüdutsuz var-dövlət.
Kütah elə	qurtar, sözə, işə son qoy, başver.
Kütür-kütür	topa-topa səpmiş yara.
Küyər	2 yaşlı keçi.
Qabax keçi	buynuzu olmayan keçi.
Qacır	qartal.
Qadarazi	adamları idaraya çağıran adam.
Qaflan	pələng.
Qafratel	koperativ(dükan sözünün təhrif ölmuş forması.
Qağan igid	lağ mənasında. vurub-yıxan.
Qax	meyvələrin qurudulmuşu.
Qaxac	qurudulmuş ət. Hədsiz qurumuş çörək.
Qala	böyük qardaşa deyilir.
Qanqalaq	baltanın ağzından çıxan odun parçaları,qalıqları.
Qanqırtaq	təndirdə qalıb qurumuş çörək parçası.
Qannıpıçaq	düşmən olmaq.
Qapızaq	oğlaq-quzu küzünə qoyulmuş balaca qapı.
Qara qabar	sağalmaz yara.

Qarabağır	quş.
Qarabaqara	1.daban-dabana izləmək. 2.dalısınca düşmək.
Qaraburundan	nəzərə almadan, kor-korana, təxminən.
Qaradalaq olmaq	işləyib özünü haldan salmaq, yormaq.
Qaraqulaq	1.çaqqal.2.Nə qaraqulaq kimi qarışmısınız bir-.
Qarama	1.başa qapaz salmaq.2.dayaz bataqlıq.
Qarayara	sağalmaz yara.
Qarınəpi	qarınqulu, çox yeyən, yeməkdən doymayan.
Qarqaşa	1.ağır iş, nəhəng iş görmək.2.Ailə vəziyyəti ağır.
Qarpınmaq	qatırın, eşşəyin ağzı ilə öz qarnını dişləməsi.
Qartökət	-T- şəkilli damlardan qar tökmək aləti.
Qaşqa porsuq	sözə baxmayan,hər sözə rədd cavabı verən adama deyilir..
Qaşqa	alnında ağ xalı olan at, heyvan.
Qatqar	yeməkdə hər şeyi bir-birinə qatmaq.
Qatma	ip, bağ.
Qatmalı	Buğda ilə bişirilən ayranaşı (dovğa).
Qatmecə	müxtəlif ərzaqların birlikdə bişirilmiş xörək.
Qavra	qavara, yiyə, balta-dəhrə itilədən əşya.
Qavrış	için qavrış olsun , yəni için yansın.
Qazayağı	ətirli, yarpağı qırçın-qırçın, yeməli yabanı səbzi.
Qeyzə gəlmək	cürətə gəlmək.
Qəcələ	sağsağan.
Qəcələbeyin	huşsuz,ağılsız, ağlıyüngül.
Qəcəlov	cığal, döyüş-mərəkə salan adam.
Qəcər	yastı, yaşıla bürünmüşı təpə.
Qəcimək	şaxta vurub donmaq,üşümək.

Qəddəmək	ağacı, qələmi yonmaq.
Qəhər-qiyamət	dözülməz çovğun-qiyamət.
Qəhətlik	qıtlıq, yoxsulluq.
Qəhmər çıxmaq	Tərəfini saxlamaq, təəssübünü çəkmək.
Qəhrin çəkmək	1.dərdin çəkmək.2.nazın çəkmək.
Qəmə	bıçaq.
Qəmələmək	bıçaqlamaq.
Qəndahara gedib	Yubanan, boş yerə gedən adama lağ ilə deyilən söz..
Qərçinik	Nüvədi dağlarında cin olan yerə deyilir..
Qəti-kəs	bir dəfəlik, tamamilə.
Qətnəzər	nəhayət.
Qətnəzər	ondan əlavə, savayı.
Qəysər olmaq	soyuqlamaq, soyuqdan üşümək,donmaq.
Qəysərxana	qışda soyuq, buz kimi olan ev..
Qəzillə	aldat, tovla.
Qıcanmaq	hücum çəkmək.
Qıcı-qıcı	dolmaya vurulan yabanı ədviyat.
Qıç eləmək	dişləmək.
Qıdmov	xəsis.
Qığ	qoyun, keçi ifrazı.
Qıxmıq	nəsil, qohum-qardaş.
Qıjov	1.maili, su iti axan arx, cüyə.2.Az, yavaş axan su .
Qılı	çiling-ağac oyununda ikinci əsas hissə.
Qılovlamaq	kərəntini, baltanı itiləmək.
Qımır	çətin xasiyyətli, hikkəli, acıqı.
Qınqıt	körpə uşağın lap az çölə getməsi (ifrazatı).

Qıpıq eləmək	xəcalət etmək, nöqsanini tez-tez başına qaxmaq.
Qıra, Qovun	yemiş.
Qırb	dəyər,hörmət.
Qırçın	qat-qat.
Qırğı	çalağan, şahin.
Qırxbuğan	yabanı səbzi.
Qırxlıq	qoyun qırxmaq üçün alət.
Qırqıc	ayaqdan şikəst. yeriyə bilməyən.
Qırqıta	Narı ağacdan dərmək üçün ucu əyri uzun ağac.
Qirpmaq	atın dişləməsi.
Qırrı	qırlanmış kağız növü.Dam örtüyü üçün işlədilir.
Qırtıb oturmaq	səssiz-səmirsiz oturmaq.
Qırtına vurur	aralıqda boş-boşuna gəzmək.
Qısqanc	cücü, həşarət.
Qısqı	sıxıntı,tələsdirmək, tələb etmək.
Qısqılamaq	tələsdirmək.
Qıvırraşmaq	vurnuxmaq, çaxnaşmaq.
Qıvraq	1.cəld,tez,sürətli.2.Yığcam,səlqəli yüklənmiş yük.
Qıvşaq	solmuş, xarab olmuş pis iy verən meyvə,ərzaq.
Qıy	1.zirvə.2. quş göydə QIY vurdu.
Qıyya çəkdim	haray qoparmaq, haray salmaq,haraylamaq.
Qızıxmaq	cinsi qızmaq, cinsi hisslərin coşa gəlməsi..
Qızılqabıq	iri, sulu dənəli tez yetişən nar növü.
Qızırqanmaq	xəsislik etmək, qıymamaq.
Qızışma	paltarda, yorğan-döşəkdən,ustü-başdan pis iy.
Qızqaçırma	qədim uşaq oyunu.

Qoca	nənə. Anaya isə nənə deyirik..
Qolaylamaq	hara gəldi tullamaq,tolazlamaq.
Qovurma	qış üçün qovrulmuş ət.
Quqqu	alapaxta quşu.
Quqqu kimi	tək, tənha.
Quqqu yuvası	çox darısqal,çox balaca ev.
Quqqulu-quu	Tək-tənha.
Ququlu	narın içindəki dənələrin pərdəli hissəsi.
Qulanc	burnundan açılmış əlin son barmağına olan məsafə, bir metr.
Qultumac	əllərini yelləmək.
Qultumac	qultumacın yelləyir,yəni qollarını yelləyir,tovlayır,yırğalayır.
Quluncan	müalicəvi ot.
Qum	ağac budaqlarından bağlanmış şələ.
Qurşanmaq	öyrəşmək,dadanmaq, bir şeyə vərdiş etmək.
Quşqun	palanın arxa hissəsi. Və palanla bağlı sözlər:tüyərək, balığalar,qaşı....
Qut	ye ürəyində qut olsun, yəni ye tox ol.
Qutu kimi	yığcam. yöndəmli.
Quyruq döğub	sentyabrın 5-də palıd ağacının yarpaqları arxasında qırmızı-sulu,yumuşaq maddə.
Quzuqulağı	bağlarda və dağıarda bitən yabanı səbzi.
Lalovun	acgöz, aclıqdan çıxmış, görməmiş adam.
Lam	sakit, durğun, hərəkətsiz.
Laş (pazax ət, çındır ət)	qabırğaların yanlarından sallanan ət parçasıı.

Lavızlı dadlı, ləzzətli.

Lavzama danışma, dinmə, hürmə.

Leylan çölü geniş xarabaya qalmış çöl, ağlını itirib çöllərə vurmaq.

Ləhləmək 1.itin istidən dilini eşiyə salıb töyşüməsi. 2.Qaçıb haldan düşmüş adamın töhşüməsi.3.bol suda islanmış torpaq.

Ləj düşüb incidiyi adamla dava-mərəkə aparan adam.

Ləms iflic, hərəkətdən, haldan düşmək.

Ləvərə toyuğun qabıqsız yumuptası.

Licim 1.yaraşıqsız geyimli,xarici görünüşsüz.2. tənbəl, ışləməyə həvəsi olmayan.

Lığanda ağacın budağını əyib yerə basdırmaqla onun çoxaldılması.

Lığlığa yaraya yığılmış irin-çirk, boğazda ağrılı irinli şiş.

Lılıx fırtıx.

Lılımır boş bişirilmlş yumurta, başdansovdu bişirilmiş yemək.

Lilov yaxantı su, kirli su.

Linc olmaq çox qaynayıb ötmüş xörək.

Lingini çəkmək axsamaq yanını, budunu çəkmək.

Lizipis zay etmək, yarıtmaz, səliqə-sahmansız.

Lov (başı lovlu, lov xəbəri) bəla, bəd xəbəri, başını yolub yelə vermək .

Löküt tam bişməmiş düyü, iri.

Löpük işlənmiş sabunun kiçik qalığı.

Lümə 1.kəsilmiş ağaçın qısa qalığı.2.itin kəsik quyruğu.

Lümə kötüyü,.

Madarın sovmaq kasıblıqdan başını bir təhər dolandırmaq.

Mafingi əldə qayırma, müvəqqəti.

Mağal yeri günorta heyvanların dincəldiyi, sağına gəldiyi yer.2. heyvanların gecə qaldığı yer .

Mağıl heç olmasa,buna baxmış.

Mahlım məgər, yoxsa?.

Maif gözdən şikəst, kor.

Malakovuş yabanı səbzi.

Malapır yayda qanadlı ağ balaca böcək.Kilim, gəbələri dalazlayır, (yalayir, yeyir) naxışları solur.

Maliyəsi bir qəpiklikdir dəyəri, qiyməti.

Mançıxıb acından haldan düşmək, sür-sümüyü çıxmış,arıq.

Marıtdamax güdmək, pusquda durmaq.

Maş balaca ağ və gəhrayı lobya.Şumer-Türklərdə də bu söz vardı..

Mat bərk doşab.

Mataran qarın.

Mezər barama sapından toxunmuş çarşaf.

Məjmeyin iri mis sini.

Məkə qarğıdalı. Köşşək qarğıdalının dənsiz çubuğu.

Mələs sulu, yumuşaq turş meyvə, peyvəst meyvə.

Məməri təməli, mayası.

Məntəqə heyvan sürülərini mayalandırılan yer.

Mərək yaylaqlarda saman yığılan yer, örtük.

Mərfəc kilim formasında toxunan, yorğan-döşək yığılan sandıq.

Mərs	iki parça bağ arasındakı yer,zəmi arasındakı boş sahə.
Məzməzək	mozalan.
Mıqıtməcaz	tez küsən, inciyən, hirslənən.
Mıqqınmaq	tərpənmək, durmaq.
Mırqız	yanaqları qırmızı keçi.
Mirov	bağların suvarılması üşün suya nəzarət edən adam.
Mısmırıq	dodağını kefsizdən sallamaq, kefi pozulmaq.
Miz	ətin, quru meyvənin qurdlanması.
Moltanı	varlı-dövlətli, hərşeydən bol.
Mövəstil	üzümün təzə uzanmış zoğu.
Muğaşar	alça, gavalı qurusu.
Mulax	narın, heyvanın budaqla qırıb saxlamaq.
Mulalı danışma	örtülü, gizli danışmaq.
Mur	qulağı, yanaqları ağ çil-çil keçi.
Murad quşu	tut təzə yetişəndə sürülərlə tutdan-tuta qonub yeyən qaranquş irilikdə quşdur.
Mücavir	növbətçi, qarovulçu.
Mülüd	damın örtüyünə verilən palçıq.
Mülüd	evin üstünə verilən palçıq.
Mür	xalçanın ipini yeyən həşərat.2. dəmirin çürüməsi,yeyilməsi.
Müsəlli	müsəlləh, ibadət olunan təpə, dağ.
Müstər	çox tənbəl, işləməyə canı çıxır.
Nabıt olasan	yox olasan, peşman olasan,yarımayasan.

Nal ağacı	divar möhkəm olsun deyə hər tərəfə divar enində qoyulan qoşa ağac .
Nammıxıda	maşallah, allah saxlasın.
Nanahır	1.yekəpər, kobud.2.Nəmli evlərdə ağ tarakan formalı bögək.
Netən-netən	gözdən salınmış.Hər gələn bir söz deyir.
Neybət	kifir, eybəcər.
Nığnıqa, Şinnik	səs-küy, mərəkə.
Nışqar	axurda qalan otun artığı.
Nızqa	naxış, çörəyə, qoğala vurulan naxış.
Noştov	səhər yeməyi yeməmək,ac olmaq.
Novrast	iri, uzungiləli tez yetişən üzüm növü.
Nuhu-Nəbidən	çox-çox qədimdən.
Nur	pendir suyundan alınan şirintəhər məhsul.Şora bəvzər.
Olancadan olmaq	haldan, heydən düşmək,hər yaxşı xasiyyətindən qalmaq..
Oruğa	qoruq, örüş.
Oruğunu aşmaq	həddini aşmaq.
Orux	nəsil, zat.
Ovurtdaq	yumru ətli sifət, ovurdu ətli adam.
Öfgə	ağ ciyər.
Ölət ye	qarğış,zəhrimar, ağı.
Öləzimək	solmaq, zəifləmək.
Örük	mal-heyvan uzağa getməsin deyə əlinə kəndir salıb ağaca, mıxa bağlamaq.
Övc etmək	aptmaq, yaxşılaşmaq, inkişaf etmək.

Övcül	qabaqcıl, əziz, lazımlı.
Pakı	zəmidə 2-3 metr biçilmiş sahə.
Pandom	qəbiz olmaq.
Papaq incir	içi boş, şirəsiz iri əncir.
Pardaqlanmaq	gül kimi açılmaq.
Parpın	yabanı səbzi.Bişirib sarımsaq-qatıqla yeyilir və turşuya da qoyulur.
Partov	ağzı söyüşlü, danışığını bilmıyən,ədəb gözləməyən.
Pata bəzəmək	yalan, şər,böhtah demək.
Patava	çəkmə, ayaqqabı, corab.
Pazax	arıq, yağsız ət, cəmdək.
Perramaq	qovmaq, kənarlaşdırmaq.
Peşər	sağından sonra keçini-qoyunu yenidən sağmaq.
Peydahın kəsilsi	nəslin, artımın kəsilsin.
Peysər	yağlı boyun.
Peyvəst	iri, əla növlü meyvə ağacı, və ya meyvə.
Pəl vurmaq	yüklü ulağın yükünün ağaca,daşa toxunması .
Pəlləşmək	iki yüklü malın bir-birinə toxunması, sürtünməsi.
Pənireyh	yumuru yarpaqlı yabanı səbzi,sığatan bişirilir.
Pərdi	evin ustunə döşənən ağaç, taxta.
Pərpiləmək	danlamaq, qabağənə almaq.
Pəstah	alət,lavazimat.
Pəşmi deyil	vecinə deyil.
Pıçılqan	ayaq barmaqlarının arasında çat, yara.
Pılçıx	gözün iltihabı, gözün küncünə yığılmış çirk.

Pilk	yastı, ağ, məxməri yarpaqlı yabanı koldur.Dəmləyib icdikdə sidik daşlarnın tökülməsinə və mədəyə kömək edir..
Pinc	sınmış saxsını, kuzəni, nehrəni yamamaq üçün əhəng, su, pambığı bir yerdə döyülüb yumuşaq halına deyilir.
Pır	soyumaqda olan təndirə azca odun qoyub yandırmaq.
Pırpız	qaba, bir-birinə qarışmış.
Pıtırqan	1.çox künclu və iti tikanlı ot.2. pıtraq, dolu, bol.
Piyava	bağ səbzisi, az acı və iştah gətirici qıyaq göyərti Pərvəriş rövnəq, şövq, qol-qanad açmaq.
Pompan	yumru kök, ağır hərəkətli.
Pötüt	fransız sözü olub balaca deməkdir. Bizdə də balaca, şuluq uşağa deyilir, bəzən də yetim qalasan mənasında.
Püfürdək	heyvanın sidik kisəsi, keçmişdə uşaqlar kəsilmiş heyvanın sidiyini boşaldıb üfürüb şışırdər və əltopu edərdilər. .
Ravannamaq	əzbərləmək, öyrənmək, vərdiş etmək.
Rəngan	solğun, saralmış, zəifləmiş.
Rəşbər	bağban.
Rəvac vermək	sahmana, nizama salmaq, imkan vermək.
Rəzə	cəftə, işkil.
Rıxtın	çox ağır, iri daş.
Rikin	divarın künclərinə qoyulan düz tilli, divarı nizamını təmin edən iri daş.
Sağal öküz	sarı öküz.
Sağal tülkü	bic, fırıldaq adam.

Sağanaq	cəhrənin pəri (barabanı).
Sağır	yetim.
Sağrı	atın belinin arxa tərəfləri.
Samı	boyunduruğu öküzün boynuna bağlamaq üçün qöşa çubuqlar .
Sattıqat	ayaqyalın elə-belə qaçan uşaq, avara gəzən.
Selax	1.Dəridən olub küpün, saxsının ağzına bağlanır.2.dabansız,yüngül ayaqqabı..
Selinti	selin gətirdiyi ağac, odun, çör-çöp.
Selov	selab, dar dərə.
Serizə	həmişə,aramsız.
Serizə	həmişə.
Seybənd	daşla döşənmiş yol, küçə, yer.
Seydim-sırıq	başdansovdu, necə gəldi, səliqəsiz, sahmansız.
Seyin	metal nimçə.
Səfilamanat	toxunmadan, olduğu kimi,sağ-salamat.
Səhli saymaq	saya salmamaq, eşitməmək, əməl etməmək.
Səkil	heyvanın ayağında olan ağ xalı.
Səkmək	kəklik kimi yerimək, dabanı üstə yerimək.
Sələ	dən, sünbül yeməsin deyə ulağın,öküzün ağzına vurulan ağızlıq .
Səllimə	başlı-başına, işsiz, bekar gəzən,ərköyün böyüyən.
Səmrimək	kökəlmək.
Səmriyib	kökəlib.
Səndirləmək	az qala yıxılmaq.
Sərdan	qoyun sürüsü sağılan yer.

Sicim	atı, qatırı yükləmək üçün 8-10 metr kəndir.
Sığatan	çirişdən, düyüdən hazırlanmış xörək.
Sığırquyruğu	yabanı 80-90sm.hündürlukdə sarı çubuqlu bitgi.
Silə	ağzına qədər dolu.
Sılıf	təmizlənməmiş düyünün içində darıdan balaca,sarı olur.
Sillə	şapalaq.
Simriyib	həyasızlaşıb,sözə baxmayan.
Sinmək	(inad adama deyilir) əyilmək, yumuşalmaq, razılaşmaq.
Sinni	yaşlı, qoca.
Sırtıx. Sırıxlı	pencək əvəzi.
Siyapır	həyasız, utanmaz.
Sonqulamaq	diqqətli olmaq, düşər-düşməzliyini sınamaq.
Sulu çörək	yumru, bir qədər qalın təndir çörəyi.
Suncuxlamaq	atılıb- düşmək, oynamaq.
Sunqulamax	diqqət vermək, yoxlamaq, götür-qoy etmək.
Suraylamaq	hara gəldi ayaqqabıli girmək,evdə gəzmək.
Suyumu	oxşarı, bənzəri.
Suzalıb	arıqlayıb, halsızlayıb.
Süddüyan	ağ yapışqanl südlü kol.
Sülə, Sümsük	hər şeyə tamah salan.
Sümsü	söyüd, qoz budağından barmaq uzunluğunda hazırlanan fit çalmağa yarıyan əşya.
Süng eləmək	var-yoxdan çıxartmaq.
Sürsat	atılmış, lazımsız əşyalar.

Sürük	rədd ol, itil, çəkil get.
Sütül	buğdanın, qarğıdalının təzəcə yetişmişi.Sütül oğlandır, sütül qızdır, yəni təzəcə cavandır.
Şadara	köşədən(dəridən) toxunmuş iri deşikli ələk.
Şax	1.buynuz.2. Gəlin aparanda iri nar budağının üstü çoxlu meyvələrlə bəzədilmiş şənlik ağacı.
Şax	düz, qamətli, ütülü.
Şaxlanmaq	fərəhlənmək, qürrələnmək.
Şaxşavar	qollu-budaqlı quru ağac.
Şaqqavat	hündür, boy-buxun, görkəm.
Şaqqıldamaq	nərildəmək.
Şalax ərik	iri, içi və ləti şirin ərik növü.
Şappır	iri yarpaqlı.
Şayəd	əgər, hərgah, işdir .
Şelə suyu gəzdirir	ara vurmaq.
Şeşə vurub	guya görünməz bir varlıq zəfər yetirib.
Şəfşirə	quru meyvələr toplusu, yazağzı təzə çıxan meyvə,tərəvəz.
Şəngil	yellənəcə.
Şəpə	küləyin dərələrdə yığdığı qar topası.
Şərşəmət	mərdiməzar, böhtan.
Şətəl	ara vurmaq, şuluqluq qatmaq.
Şıdırğı yağır	gur, müsibət yağmaq.
Şiqq ilə	ərklə, birdən, açıqürəklə.
Şılın, Şılınlıq	sıx kol, çətin keçilən kolluq.

Şingilim atmaq şıllaqlamaq, şıllaq atıb oynamaq.

Şinnik səs-küy, yığıncaq.

Şıpıtma ələstü, dərhal, həmin an,qaçaraq gəlmək.

Şıppadanqulu gözlənilmədən, birdən, qəfildən.

Şırna daşdan tökülən su, nov, damlarda yağış üçün qoyulan novalça, su gur və hündürdən tökülənə şəlalə deyirik .

Şırtdanmaq.Əriyin əzmək yüngüllük etmək, sevinmək.

Şırtı düşük,yüngül xasiyyət,xoşagəlməz hərəkət.

Şiv ağacın zoğu, çubuğu.

Şivit Şüyüd.

Şorun-şortun çıxartmaq ağ eləmək.

Şötük tumanın, yopğan üzünün yanına salınan parça .

Şuğluzuma olmaq Allan yanında günah qazanmaq, günahkar olmaq, günah qazanmaq.

Şuğul bənnanın divarı tərəziləyən aləti.

Şurov, Şurova şoraba, turşu.

Şüküataz torpaq altda uzun, sirin yeyilən zoğ.

Şümrü başkəsən, cəllad, allahsız,kafir.

Tağalaq cəhrədə əyirilən düyçəni dağılmasın deyə iyə keçirilən qurumuş dairəvi dəri.

Tarıbaba qanadları dairəvi qırmızı,qara xallı balaca böcək.

Tay ipi atın, qatırın yanlarına salınacaq yükləri taylayan qısa kəndir.

Tazaraxlandı götürülüb qaçmaq.

Teyxa həmişə, bütünlüklə,tamamı ilə.

Teyxa həmişə, bütünlüklə.

Teztav qıvraq, cəld, tələsik.

Təfirqə heç nəsiz köçüb gəlmək.

Təhr etmək incimək, küsmək, inad göstərmək.

Təkər-təkər yekıə-yekə danışmaq, təkəbbürlülük.

Təllivəl güc-bəla ilə dayanan hər hansı bir şey, adam,bina.

Tərkibinə bax formasına, geyiminə, adamlığına bax.

Tərmə alaçıqların sıra ilə düzülüşü.

Təşbeh elə hesab elə, zənn elə,müqaisə.

Təzmək, Tazaraxlanmaq hürkmək, qaçmaq.

Tığ odun, nar, üzüm yığımı.

Tıxac səhəng ağzının qapağı.

Tılf meyvənin, çayın istifadəsindən sonra tullantısı.

Tılfı tökərəm döyüb əzişdirmək.

Tilimək təzəcə balasını əmməyə qoymayan keçiyə və ya yad keşiyə öz balası kimi tanıtmaq əməliyyatına tilimək deyilir.

Tilişgə ağacın, odunun nazik, itiuclu balaca hissəsi.

Tingə meyvə tingi.

Tipə-təpmə qəfildən, birdən, tələsik .

Tır Tır (adamdır,arvaddır): Yəni,çox tərs,inadcıl,sözə yatmayan.

Tır deyib durub inadcıl, tərs,zulum.

Tir eyvana, aryımaya salınmış xeyli uzuun ağac, mil.

Tirix qaramalın duru peyini.

Tisbir vəziyyət, hal.

Tısıx qarın, dünbək.

Tısıx qarnı.

Tit gətirmək	oturuş gətirmək.
Tiyamər	1. Qışda dəhşətli şaxta.2. Yayda dözümsüz isti.
Torta	ərinmiş yağın çöküntüsü.
Tor-toxum	əsasan ata tərəfinin uzaq-yaxın qohumları.
Törə.Tösbərək	balaca boy, liluput.
Tulazlamaq	əl ağacını,odunu hara gəldi möhkəm tullamaq.
Tunquyub	çömbəlib oturmaq, quruyub qalmaq, qısılmaq.
Tunquyub	soyuqdan donmaq,bir yerdə qısılıb durmaq, arıqlayıb.
Turş	nar-şərab.
Tutalrqa	uşaqlıqdan adamın deyiklisi, adaxlısı .
Tuturuğu çıxıb	istudən yanmaq.
Tünnük	sıxlıq, qarma-qarışıqlıq,səsli-küylü yer.
Ucıbınıx	öz aləmində nəsə düzəldən.Nuhun gəmisini düzəldən ÖVC- ibn-ƏNİQ düzəldib.O bütün Şərqdə UCIBINIX adlanır.
Uçurlanmaq	döş, yol aşağı götürülüb qaçmaq.
Uğursaq	mayalanmamış öğlaq, anası ölmüş yad keçiyə əmizdirilən oğlaq.
Ulas	hündür meşə ağacı.
Uleylası	adamın nəsli, nişanəsi, yurdda qalmayanı.
Ulumirzə lənət	yəni ulu keçmişinə,ulu babalarına.
Umur	fürsət.
Umur	imkan, fürsət.
Unvay-künvay	əzilmək, dağılmaq, yerilə-yeksan olmaq, əzişdirmək, döyüb əldən salmaq.
Uruq almaq	heyvanın nəslin artırmaq.

Urvatlı	əməlli-başlı, layiqli, abırlı.
Uşqunmax	əldən çıxıb qaçmaq (Uşqunub elə hey sizə qaçır)..
Uvra	lavaş çəkilərkən xəmir taxtaya və oxlova yapışmasın deyə xəmirə səpilən un .
Uzunşərif eləmə	artıq danışma, çərənləmə, uzatma.
Ülə	şəlalə.
Ümsük olmaq	tamahdan şişmək.
Ünə. Dıtdı	hünü, ağcaqanad, mığmığa.
Üstub	şöhrət, yaraşıq, tərkib.
Üzlü pişik	utanmaz, həyasız,sırtıq, abırsız.
Üzübəhəm	sırtıq,həyasız,utanmaz.
Üzük-üzük	qədim oyun.
Varavürt	gözdən keçir, yoxla, izlə.
Vasqı	çaqqal balası.
Vaşşax gətirmək	həyəcanlanmaq, heyrətlənmək.
Vaveyla	vay-şivən.
Veçə vermək	1.ağacin budağından, gövdəsindən zoğlamasi. 2. arı ailəsinin pöhrə verməsi.
Velə	1.avara, əlindən bir iş gəlməyən. 2.Əncirin lap tez yetişəni, iri və dadsız olur.
Vər	1. Zəmidə yan-yana düzülmüş biçinçilərin öz sahəsi. 2. başqasının əvəzinə, yerinə danışmaq .
Vərdənə	oxlovdan yoğun və yumru gödək alət.
Vəryan	ümumi arxdan bağa qyrılan su yolu.
Vılozla	gücün çatdığı qədər daşı, ağacı tulla.

Vızılqan	sürüşkən yer.
Vızqırt	rədd ol get.
Vurğun vursun	qəfil bəlayə gələsən.
Yabara	rahbərə, üzüm tənəyi.
Yanbız	yançaq.
Yandışlıq vermək	acıqlandırmaq, qıcıqlandırmaq,yandıqlıq vermək.
Yanımcıl	istiqanlı, canıyanan.
Yaslam	alçaq təpə,dağın düzənlik yeri.
Yaşmax	qapı çərçivəsinin yanlarına vuryulan nazik taxta.
Yatab eləmək	sürgünə göndərmək.
Yatır, Kürülü var	xəzinə, var-dövlət.
Yava (adan,heyvan)	1.Heç nəyə yaramayan adam.2. Sahibinin qapısına dadanmayan, gəlməyən heyvan.
Yavıx	yaxın,.
Yavımaq	yaxınlaşmaq, doğmalaşmaq.
Yavıncı	möhtac,yalvarmaq.
Yavıncı	möhtac.
Yaylam	yerə sərilmış, yayılmış.
Yelinləyib	boğaz heyvanın təninin(cins üzvüsünün şişməsi) doğmasına 4-5 gün qalma vaxtı.
Yelpizək	nazik.
Yerikləyib	məcazı mənada hamilə qadının hər hansı meyvəyə hədsiz tamahı.
Yetik	heyvanın doğmasına qalmış az vaxt.
Yez nar	iri və sulu dənəli,çox şirin nar.
Zandaxur	kənarda, qıraqda, uzaq yerlərdə.

Zardov irin, çirk.

Zebov iş bacarmayan, avara, bekar gəzən, veyillənən.

Zel siçan ifrazı.

Zəris turşməzə salxımlı giləmeyvə.

Zibirik getmək əsir-yesir olmaq,haldan, əldən düşmək.

Zığ palçıq.

Zıxca.Dıra. Dırama artıq-qrtıq doldur.

Zil quş peyini.

Zingirtə üzüm salxımına birləşən bir neçə gilənin toplusu.

Zır düdüyünə qoymaq hər yerə car çəkmək,xəbər yaymaq.

Zir nəlbəki.

Ziri-zəbər yerlə-yeksan, yerə dəyib dağılmış.

Zırtı qırmızı üzüboz,abırsız, söz əsirgəməyən.

Zoğand evin bünövrəsi.